**Dövlət müstəqilliyi sayəsində Azərbaycan öz taleyinin sahibidir. 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində növbəti dəfə xalq öz sözünü dedi, siyasi iradəsini, mövqeyini ortaya qoydu. Yeni Azərbaycan Partiyasının namizədi, partiyanın sədri cənab İlham Əliyev seçicilərin mütləq əksəriyyətinin - 86,02 faizinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.**

# UĞURLU, MƏQSƏDYÖNLÜ SİYASƏTİN TƏNTƏNƏSİ



Xalq həmişə olduğu kimi, bu dəfə də doğru, düzgün və müdrik seçim etdi. Prezident İlham Əliyevə səs verməklə ölkədə sabitliyə, əmin-amanlığa, aparılan demokratik islahatlara, inkişafa, tərəqqiyə səs vermiş oldu.

Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinin əleyhinə çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə müdrik xalqımız bir daha öz yerini göstərdi.

Xalqımız cənab İlham Əliyevi alternativsiz lider, sözünü əməli işləri ilə doğruldan müdrik siyasətçi kimi tanıyır və sevir. Onun proqramı Azərbaycanın tərəqqisi və inkişafı proqramıdır. Hamımızın gözü qarşısında Azərbaycan sürətlə inkişaf edir, daha uca zirvələrə yüksəlir. Ölkə başçısı güclü diplomatik bacarığı ilə xalqımızın milli mənafelərini cəsarətlə müdafiə edir. Siyasətin uğurunu xalqa xidmətdə görür. Vətənə, dövlətə, xalqa xidmət etməyi ən məsul, şərəfli vəzifə hesab edir.

Möhtərəm Prezidentimiz seçkilərdə göstərilən böyük etimada görə xalqımıza müraciət edərək demişdir: "Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik".

Bu dövrdə ölkə Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı təmin edilmişdir. Bu dinamik inkişafın fonunda ölkəmizdə müasir, güclü ordu formalaşdırılmış, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. Bunun nəticəsidir ki, ordumuz dünyanın ən güclü 50 ordusu sırasında layiqli yer tutur.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatlarına cavab olaraq keçirilən əks-hücum əməliyyatı dünyanı heyrətə salan hərbi uğurla, böyük qələbəmizlə nəticələndi. Müzəffər Ali Baş Komandanın böyük sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması, dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi Vətən müharibəsində Azərbaycanın tam qələbəsini təmin edən həlledici amillərdir.

Cəmi 44 gün ərzində işğal altındakı bütün ərazilərimiz azad edilərək əbədi sahibinə - Azərbaycan xalqına qaytarıldı. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi çağdaş tariximizə Zəfər Günü kimi yazıldı. İşğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Nəticədə BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini müstəqil Azərbaycan dövləti özü icra etdi.

Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Uzun illər işğal altında olmuş torpaqlarımız erməni vandalizminə məruz qalmış, qədim yurd yerlərimiz, yaşayış məntəqələrimiz yerlə-yeksan edilmiş, yeraltı və yerüstü sərvətlərimiz talan edilmişdir. Güclü iqtisadi potensiala malik Azərbaycan dövləti həmin ərazilərdə müasir yaşayış məntəqələrinin tikintisinə start vermiş, böyük logistika və digər infrastruktur layihələrin icrasına başlamışdır.

Füzuli hava limanının qısa zaman ərzində inşa edilməsi dünya praktikasında nadir hadisələrdəndir. Bu gün Qarabağda aparılan genişmiqyaslı tikinti, bərpa, quruculuq işləri sevinc, fəxarət doğurur. Bir zamanlar həmin ərazilərdən didərgin düşmüş soydaşlarımız böyük qayıdışın astanasındadırlar.

Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsidir ki, Azərbaycan gündən-günə daha da çiçəklənir, qüdrətlənir. Əldə etdiyimiz uğurlar xalqımızın 2018-ci ildə keçirilən prezident seçkilərində düzgün mövqe tutduğunu, cənab İlham Əliyev kimi uzaqgörən siyasi lideri dəstəkləməklə ən gözəl seçim etdiyini bir daha göstərdi.

Prezidentimiz hər bir azərbaycanlının fəxri, yadların isə həsəd apardığı və heyran qaldığı bir liderdir. Xalqımız müstəqil Azərbaycanı parlaq qələbələrə və işıqlı gələcəyə aparan öz müdrik rəhbərinə qəlbən inanır və onunla fəxr edir.

**Xədicə ƏLİYEVA,**
**Astara şəhər M.Ə.Sabir adına 1 saylı tam orta məktəbin direktoru.**

Respublika .- 2022.- 12 aprel.- S.9.